Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 29 (2063) 7 mart 2020-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

# M.P.Vaqifdə ali müdriklik hissi və gözəllik anlamı

(əvvəli ötən saylarımızda)

**Özündən asılı olmadan xəyali həmin qadına vurulur, bəlkə də məhrəmanə istəklə bu emosionallığı yaşayır.**

**Əlbəttə, ilkin olaraq beyinlə bağlıdır, fiziki baxımdan onda ”libido” baş qaldırır və misraları çağırır mələklərin yanından. M.P.Vaqifin şeirlərinin məntiqinə varanda etirafını gizlətmir: gözəl qadına əli çatmır, uzaqlardadır, heç üzünü də göstərmir: şair ilham üçün ayrılıq həsrəti bir poetik təkandır:**

**İntizar çəkməkdən, yol gözləməkdən**
**Könlümün nə tabı, nə taqəti var.**
**Yazan ola ayrılığın dərdini,**
**Fərhadü Şirincə hekayəti var.**

**Bir kimsə ki, muştaq ola cəmala,**
**Görənlər bilir ki, düşər nə hala,**
**Ol qamətin hər gələndə xəyala,**
**Görəsən ki, necə qamətin var.**

**Hicranı çəkməyən dərdimənd olmaz,**
**Sevəni sevməyən dilpəsənd olmaz,**
**Dost-dosta gələndə yolda bənd olmaz,**
**Eşqin təriqinin bu adəti var.**

Elmi müşahidələrə əsaslansaq, yaradıcı adamların, xüsusilə, sözlə oynayanların beyni, vücudu, habelə, müxtəlif siqnalları göndərməklə özünü idarə edir və bu siqnalların hərəkətində ”nevrotransmitlər” adlanan xüsusi kimyəvi maddələrin, yəni hormonların əhəmiyyəti vardır. Şairin (ümumiyyətlə, insanın) təxəyyüllü (beyni) bu hormonların balansını tənzimləyir. bununla təsvir edəcəyi subyektə (qadına) yol açır. Məhəbbəti - qadın nəzərdə tutulur - belə bir nevrokimyəvi hadisə kimi qiymətləndirməyə dəyər.

M.P.Vaqifi digər klassik şairlərdən bu mövzuda fərqləndirən nədir? Sualına cavabında öz yozumumda deyərdim ki, gözəllik duyğusu (ilk mənbə kimi), bu gözəlliyin daşıyıcısı qadın bədənini mənimsəməsi və ona aşılanan həsrətin əlçatmazlığı! Şair ilkin vurulmanın (yoxsa bu şeir yazılmaz) sahibəsi kişidə ”feromonlar” adlanır, tibbdə - gizli qoxu (təravətlik) ifraz edən kimyəvi maddələr mövcuddur ki, kişi bunun vasitəsilə özünə uyğun əks cinsi başqalarından seçir və daima o iyi varlığında yaşadır.

**Bənövşə qoxulu yardan ayrılan**
**Gündə yasa batar, günü zar olar.**

**Öpəsən, qucasan ağ sinəsini,**
**Müşk-ənbər iyinə batasan dürüst.**

***

**Cismin nə nazikdir gül bədən kimi,**
**Bir xoş qoxun gəlir yasəmən kimi.**

***

**Bənövşə tək ənbər zülfün buy verir,**
**Hər yuyub sərəndə həvayə, Zeynəb!**
**Onun ətrin damağından üzməsin,**
**Əmanət et badi - səbayə, Zeynəb!**

***

**Bədənini gül yaradan ilahi**
**Sərasər ətrini ənbər eylədi.**

Şair gözəli görüb ona vurulursa, yəni o cananın obrazını xəyalında yaradırsa nə baş verir? Şeir elə də yerliyersiz yaranan möcüzə deyil a! Yox, bu fenomen fenil etilminin ifraz funksiyası ilə bağlıdır və bu maddə qadın gözəlliyini mənimsəmə prosesində onun təsirilə donamin və epinefim ifraz olunur. Şair birinci maddənin köməyilə məhəbbətini duyumda özünü səadətli hiss etməyə səbəbdir və hormon adlanır.



Belə ki, doramin təbiətən qadından asılılıq yaradan, habelə beyni (təxəyyülü) mükafatlanma üçün ifraz etdiyi kimyəvi maddədir. Qadın bilərəkdən gözdən yayınır, onun (kişinin) yoluna çıxmır, sifariş göndərir harayasa gedəcək və s. Yaxud, hansısa kədərli hadisədən qəm dəryasına batır, ağlayır, sızlayır.

Bu səda şair - aşiqə çatır və qəlb atəşi alışır, xəyalı həqiqəti reallaşdıra bilmədiyi üçün şeir doğulur, özü də ehtirasla, pafosla:

**Məni qərq eylədin qəm dəryasına,**
**Ey çeşmi-xumarım, neşün ağladın?**
**Ey gözüm, nə dəyib kövrək könlünə?**
**Ey şirin kövtarım, neşün ağladın?**

**Bağrım başın şan-şan eylədin, dəldin,**
**Dönüm gözlərinə, az ağla - öldün.**
**Deyərdin, gülərdin, belə deyildin,**
**Mənim cadugərim, neşün ağladın?**

**Hər kəs görən dəmdə öz sirdaşını,**
**Məgər tökər qabağını - qaşını?!**
**Oda yaxdın ciyərimin başını,**
**Vaqif der: dildarım, neşün ağladın?**

Şairi ilhama çağıran ikinci maddə ”adrenai” kimi daha çox hallanır. Gözəl qadınla oturub-duranda kədərdən, qüssədən, intizardan uzaqlaşır, sevincindən, arzusunun yetişəcəyindən şairin ürək döyüntüsü sürətlənir, ani aclıq hissi yaşamasına, dizinin əsməsinə səbəb yaradır, nəticədə:

**Qol-boyun oturaq, sürtək üz-üzə,**
**Baxaq bir-birimizə göz süzə-süzə,**
**Gah-gah qucaqlaşıb köyüs-köyüsə**
**Görək ləbdən ləzzət ikimiz belə.**

**Doyunca zövq alaq nazu-qəmzədən,**
**Əndişə çəkməyək heç bir kimsədən,**
**Hər gecələr şirin-şirin sübhədək**
**Eyləyək hekayət ikimiz belə.**

Həsrətdən sonra vüsala yetişəndə aşiq (şair) ”xoşbəxtlik”, ”səadət” hormonu qədərincə bilinir, bunu şair hiss edir, daha intizarını yaşadan serofanin hormonu çəkilib yox olur və bu dəfə öz funksiyasını dəyişdirir, beynin, canın - ruhun nikbin vəziyyətilə əlaqədar. Əgər serofanin dozası yüksək olarsa, şair (ümumiyyətlə, kişi(lər) özünü rahat hiss edir, aşağı səviyyədədirsə hətta depressiyaya düşmək təhlükəsi ehtimalı gözlənilir. Məhəbbətini itirən cavanların ”dəlili”yi bununla bağlıdır. Əslində, onlar dəli deyillər! Beləliklə, məntiqə söykənsən qadınla kişi vüsal məqamlarına çatanda, istəklər başa çatanda məhəbbət də rolundan çıxır, qadına olan yanğısı sönməyə doğru gedir. Şair(lər) isə yeni sevdaya düşür. M.P.Vaqifdə neçəneçə qadının adı təsadüfən çəkilmir, ”köhnələr” yalnız şairin şeirlərində xatirələşir. Bir şeirində, Fatiməyə həsr etdiyi misralarda bunu gizlətmir:

**Eşqin atəşidir məni əridən,**
**Can üzüldü, baxa-baxa geridən,**
**Dönmüşəm mələkdən, tamam pəridən,**
**Vaqifəm, sevmişəm təzə Fatimə?**

Diqqət edək: Sonuncu misrada Fatiməyə xitab yoxdur və ”vergül” işarəsi də yoxdur, yəni təzə sevdanın obrazı - subyektidir Fatimə!

M.P.Vaqif poeziyasında ikinci məhəbbət mərhələsi mövcuddur: Bu, vurulmada şair (aşiq) - qadının reaksiyasını görmürük - seçimlərlə qalmalı olur:

Birincisi, xalis məhəbbətdir, uzun illərdir davam edir və xeyli şeirlər həsr etmişdir. Məsələn; Pəri və Zeynəbdir, müxtəlif rakurslardan tərənnüm olunmuşlar. Şairi gözəllik girdabına salan və qəlb evindən çıxmayan qəşəng camallı Pəridir:

**Boyun sürahıdır, bədənin büllur,**
**Gərdanın çəkilmiş minadan, Pəri.**
**Sən ha bir sonasan, cüda düşübsən,**
**Bir bölük yaşılbaş sonadan, Pəri!**

**İxtilatın şirin, sözün məzəli,**
**Şəkər gülüşündən canlar təzəli.**
**Ellər yaraşığı, ölkə gözəli,**
**Nə gözəl doğubsan anadan, Pəri!**

İkincsi, bu ithafında şair çox nikbindir, tayı-bərabəri olmayan (hətta ölkədə belə) bir gözəldir, ellər yaraşığıdır, anadan gözəl doğulmuşdur. Daha nə lazımdır, Vaqif üçün?

**Sən gedəli, mən ziyadə ağlaram,**
**Vermişəm ömrümü bada, ağlaram.**

**Hər düşəndə qəddin yada, ağlaram.**
**Ünüm çıxar ərşi-əlayə, Pəri!**

**Səndən ayrı qəlbim kababa dönmüş,**
**Yıxılmış dil şəhri xəraba dönmüş,**
**Firqətin damutək əzaba dönmüş**
**Dildarın cənnətül-məvayə, Pəri!**

Bu ithafında isə şair xeyli bədbindir, Pərisi yoxdur öz məkanında, harayasa getmiş, şairi həsrət qoymuşdur - sızıldasın - Şairin etirafı üçün.

**Bir görəydim sənin gül camalını,**
**Cadu gözlərini, yay hilalını,**
**Müənbər saçını, hindu Xalını,**
**Yetərdi hər dərdim dəvayə, Pəri!**

M.P.Vaqif gözəlliyi duyur, hisslərini təzələyir, həsrəti damağından silinmir və nəhayət, bu məhəbbət sevgiyə dönür, ümumiləşir. Münasibətlər daha yüksək romantik səviyyəyə çatır, cütlər bir-birini tamamlayır, xəyalpərvərlik elementləri yaranır. M.P.Vaqif daha adlar sadalamır, konkret ”sevdigim” deyir. Bunu şairin bir sıra şeirlərində əyani görürük.

**Heç nə istəmənəm iki dünyada,**
**Sənsən mənim axar-əzəl, sevdigim!**
**Harda olsam, könlüm gələr yanına...**
**İraq durma məndən, cüdayı gəzmə**
**Gəl indi mənimlə düzəl, sevdigim.**

**Onun üçün uymaz qeyriyə könlüm,**
**Bir əcəb zibadır mənim sevdigim!**
**Əndamın güldür, ey sənəm sərsər,**
**İstərəm başına dönəm sərasər.**
**Qəmzə oxun mənə az at, sevdigim!**

**Yenə məni yanar-yanar adlara**
**Dağılmış ayrılıq saldı, sevdigim!**
**Mən ha getdim möhnət ilə, dərd ilə,**
**Can sənin yanında qaldı, sevdigim!**
**Dərdin bu Vaqifi aldı, sevdigim!**

**(ardı növbəti sayımızda)**



**Allahverdi Eminov**